# Zaqatalanın ölməz qəhrəmanı, şəhid Əhməd Laçınov!

...və yaxud yuxusu gerçəkləşən – cəsur Xüsusi Təyinatlı cəfakeş...





(əvvəli ötən sayımızda)

*O da məlum idi ki, indi adını fəxarətlə çəkilən Yuxarı Çardaxlar kəndinin igid oğlu Əhməd Laçınov hərbi xidmətə çağırılandan Xüsusi Təyinatlılarda xidmət etmək istəyirdi. Şübhəsiz ki, onun bu istəyi and içmədən sonra həyata keçir. Əhməd xüsusi qabiliyyəti ilə seçilən hərbiçi kimi Xüsusi Təyinatlıların Dəstəsinin tərkibinə təlimlərə göndərildi: "Əhməd ən aktiv təlimlərdə, aylarla dağlıq ərazilərdə keçirilən ən qorxulu tiryonlarda xüsusilə fərqlənirdi..."*

Bəli, 27 sentyabr 2020 –ci il tarixində mənfur qonşuların təxribatları nəticəsində başlayan – İkinci Vətən Müharibəsində ermənilərə qan udduranlardan və yuxularına haram qatanlardan biri də Əhməd Qurban oğlu Laçınov olub. Mərd döyüşçü,üç bacının əziz qardaşı olan Əhmədin döyüş yolu Murov dağ silsiləsindən başlayıb. Xüsusi Təyinatılar qısa müddət ərzində çətin şəraitdə yerləşən mövqelərimizi erməni hərbiçilərində təmizlədilər. Həmin vaxtlar Əhməd ilə birlikdə Zaqatala rayonunun Qandax kəndindən olan İsgəndərov Şahin, Yeni Suvagil kəndində olan Ehtiram Əhmədov, Zilban kəndindən olan Mütəllib Serov da döyüşürdülər. Hansı ki, onlarda Əhməd kimi şəhidlik zirvəsini fəth ediblər... Əhmədin yaxınları deyir ki, o, belə qızğın döyüşlərdə iştirak etməsinə baxmayaraq, tez-tez anası, atası, bacıları ilə telefonla danışardı və həmişədə tezliklə onlarla görüşməyini deyərdi. "Əziz ana, sevimli ata, ciyər paralarım, bacılarım səbr edin, narahat olmayın, bilirəm Siz ermənilərlə müharibədə iştirak etdiyimdən xəbərdarsınız. Unutmayın ki, düşmənə qarşı bizim kimi qeyrətli oğullar döyüşürlər, qorxaqlar və satqınlar yox! Mən Sizin yanınıza qalib bir hərbiçi kimi üzü ağ, qalib kimi qayıdacağam..." O, bu sözləri inamla, təmkinlə deyərdi. Qardaşımız Vətənin hər qarışını sevirdi, fərq qoymurdu.Onda döyüşkən ruh daha çoxdu... İşğal altında olan torpaqlarımızın azad olunmasında itkilərimiz az olanda çox sevinirdi, ancaq həlak olan oğullarımıza çox heyfislənərdi. Düşməndən onların intiqamını qat-qat artıq çıxartmağa çalışardı, vuruşardı – Əhməd! Bu barədə isə onun döyüşçü dostları və komandirləri bizə bildirmişdilər" – deyə şəhidin anası Züleyxa xanım və atası Qurban Ata məni məlumatlandırdılar. Ailəsindən həm də öyrəndim ki, Əhməd Laçınov xüsusi Təyinatlıların cəsur döyüşçüsü kimi Zəngilan, Qubadlı, Hadrut və Füzulidəki mövqelərimizi erməni mənfurlarından azad olunmasında fədakarlıqla iştirak edib və hərbiçi qüvvələrimizin hərbi əməliyyatlarının davam etdirilməsinə şərait yaradıblar...

Oğul itkinsindən sonra şok vəziyyətindən ayılmayan ana, ata, böyük bacıları danışa bilməsələrdə, balaca bacısı Mesed qardaşının gerçəkləşən yuxusundan danışdı: "Qardaşımla 2 oktyabr 2020 –ci il tarixində baş verən son döyüşdə iştirak edən komandirinin söylədiyinə görə oktyabr ayının 2 –də Vətən Müharibəsinin ən ağır döyüşlərindən biri oldu. Füzulinin təmas xəttində bəşəriyyətin ən azğınları olan ermənilər bir neçə müdafiə xətti qurmuşdu. Həmin əraziyəgüclü texnika və canlı qüvvə toplamışdı. Əhmədin də olduğu tabor həmin cəbhə xəttini yarıb, düşməni məhv etməliydi. Əmrdən sonra qanlı döyüş başlayır, el oğlumuz komandirlə yanaşı mövqedə dvyüşmüşdü və qan içənlərə hər tərəfdən güclü müqavimət göstərərək, mərmi yağdırmışdılar. Hərbiçilərin bildirdiklərinə görə qardaşımız "TSK" qoruyucu silahla düşmənə qan uddurmuşdu – həmin döyüşdə... Əhməd xeyli müddət erməni faşistlərinə aman verməmişdi... Döyüş məqamında qorxmaz hərbiçimizin silahı dayanmır. Ayağından yaralanan komandiri onu səsləyir, lakin namərdlərin açdıqları atəşlər nəticəsində ağır yaralanan Əhməd, artıq əbədiyyətə qovuşmuşdu. Vəziyyətinin ağır olmasına baxmayaraq, komandirləri Əhmədin nəşini döyüş meydanından çıxarır...

Yaralı döyüşçü yoldaşları söyləyirdilər ki, həmin günki döyüşdə biz tərəfdən şəhidlər və xeyli sayda yaralı olmasına baxmayaraq, Xüsusi Təyinatlılar düşmənləri məhv edərək, onların tutduqları mövqelərini təmizləyərək, növbəti uğurlu əməliyyat həyata keçiriblər...

Bu əməliyyatın ən böyük şücaət göstərən qəhrəmanlarından biri də Zaqatala rayonunun, tarixlər şahidi olmuş Yuxarı Çardaxlar kəndinin dönməz, əvəz olunmaz oğlu, üç bacının yeganə qardaşı, Züleyxa ananın, Qurban atanın qeyrətli, namuslu ürək parası olan Əhməd Laçınov oldu. Bütün Azərbaycanın xilaskarı, ömrünün ən şirin vaxtlarında düşmənə layiqli cavab verən, əfsanəviölümü ilə milyonlarla qəlbi riqqətə gətirən, daima Böyük Qafqaz sıra dağlarının zirvələrində sığıyan Zaqatalanın qartalı, məğrur oğlu – Əhmədi!

*...Söz yox ki, Əhmədin şəhid olması qürurdur, fəxrdir, bir təkrar olunmazlıqdır, hər oğul bu yolu seçmir, ancaq dünyaya gələnlərdən halallıqla, əziyyətlə, zəhmətlə böyüyənlər...*

*...Belə məqamlarda ən ağır zərbəni isə analar, atalar, bacılar, qardaşlar dadırlar...*

Necə ki, Əhmədin anası Züleyxa Ana, Atası Qurban Ata, bacıları Aytən, Çinarə Mesed...

Qeyd edim ki, 2 oktyabr 2020 –ci il tarixində İkinci Vətən Savaşında Füzuli döyüşlərində şəhid olan Xüsusi Təyinatlıların fəxri Əhməd Qurban oğlu Laçənov 3 oktyabr 2020 –ci il tarixində dünyaya göz açdığı Yuxarı Çardaxlar kənd qəbristanlığında dəfn olunub... Onu və doğma Vətəni əsil qəlblə sevənlərin iştirakı ilə...

Belə igidləri isə, heç kim əvəz edə bilməz... Ancaq onlar onların əzizlərinə dayaq, mənəvi yardımçı olmaq, onları həm də, kədər dünyasından uzaqlaşdırmaq hər birimizin Allah qarşısında borcumuzdur. Unutmayaq ki, Vətən yolunda əzizlərini qurban verən valideynlər qiymətsizdirlər. Züleyxa ana, Qurban ata kimi... Başınızı uca edən Əhməd Laçınovu isə daima ürəklərdə yaşatmalıyıq...

Onlar bizim qəhrəmanlıq simvolumuzdur...

Prezidentin sərəncamı ilə Zaqatalanın ölməz qəhrəmanı Əhməd Qurban oğlu Laçınov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

*Qeyd: Şəhid Əhməd Qurban oğlu Laçınovun əzizlərinə ilk anlardan çox hörmətsizlik göstərilib. Hamımızın xilaskarı olan bu qəhrəman oğlanın nəşi kənd qəbristanlığında geniş sahə olmasına baxmayaraq, darısqal bir yerdə, uşaq qəbirlərinin arasında, onu ziyarətə gələnlərə çətinliklərin yaranacağı bir yerdə dəfn olunub. Azərbaycanımızın fəxri və fədaisi olmasına baxmayaraq onun təhsil aldığı Yuxarı Çardaxlar kəndindəki şəhid Ramazan Muradov adına tam orta məktəbinin pedaqoji və şagird kollektivi, Zaqatala Rayon İcra Hakimiyyətinin Yuxarı Çardaxlar kənd icra nümayəndəliyi və digər rəsmi təşkilatlar, orqanlar şəhid ailəsinə biganəlik göstərirlər. Laçınovlar ailəsinin ən böyük istəyi isə - Vətən yolunda canını fəda verən Əhmədin adının müvəffəqiyyətlə təhsil aldığı zaqatala İdarəetmə və Texnologiya Kollecinə verilərək əbədiləşdirilməsidir. Kollecin rəhbərliyindən aldığım məlumata əsasən bu təhsil ocağına şəhid tələbə-məzun adının verilməsi barədə müvafiq orqanlara müraciət etdiklərii bildirdilər. Onu da əlavə edək ki, şəhid Əhməd Laçınovun üç bacısı da orta ixtisas təhsili (yəni, kolleclər qurtarmasına. E. M.) olmasına baxmayaraq, iş tapa bilmirlər. Həmçinin şəhidin böyük bacısı Aytənin müalicə və əməliyyata ehtiyacı var...*

*Şəhid ailəsinə qayğı göstərmək ən böyük savab və ehtiramdır...*

**Elman Maliyev**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

*Unutmayın ki, düşmənə qarşı bizim kimi qeyrətli oğullar döyüşürlər, qorxaqlar və satqınlar yox! Mən Sizin yanınıza qalib bir hərbiçi kimi üzü ağ, qalib kimi qayıdacağam..." O, bu sözləri inamla, təmkinlə deyərdi. Qardaşımız Vətənin hər qarışını sevirdi, fərq qoymurdu.Onda döyüşkən ruh daha çoxdu... İşğal altında olan torpaqlarımızın azad olunmasında itkilərimiz az olanda çox sevinirdi, ancaq həlak olan oğullarımıza çox heyfislənərdi. Düşməndən onların intiqamını qat-qat artıq çıxartmağa çalışardı, vuruşardı – Əhməd! Bu barədə isə onun döyüşçü dostları və komandirləri bizə bildirmişdilər" – deyə şəhidin anası Züleyxa xanım və atası Qurban Ata məni məlumatlandırdılar. Ailəsindən həm də öyrəndim ki, Əhməd Laçınov xüsusi Təyinatlıların cəsur döyüşçüsü kimi Zəngilan, Qubadlı, Hadrut və Füzulidəki mövqelərimizi erməni mənfurlarından azad olunmasında fədakarlıqla iştirak edib və hərbiçi qüvvələrimizin hərbi əməliyyatlarının davam etdirilməsinə şərait yaradıblar...*